

**Elşən Mirişli**

*Gəncə şəhəri, tarixçi*

# V Qızılbaş Şahı I Abbas

## Osmanlı İmperatorluğu ilə savaş — yandırılmış torpaq siyasəti

### II yazı

***1603-cü ildə 14 sentyabrda Şah I Abbas Təbrizin azad edilməsi üçün hərbi kompaniyaya başlayır.On dörd günün içərisində bu gənc Qızılbaş sərkərdəsi osmanlı türklərinin gözləmədiyi bir vaxtda öz qızılbaş qoşunlarını İsfahandan Təbrizə yeridir.Yol boyu Əmirgünə xan Ağcaqoyunlu və Zülfüqar Qaramanlının qoşunları da ona qoşulur.Onlar Təbrizə yaxınlaşanda şəhərin əhalisi üsyan edir ki, bu da şah Abbasın şəhəri,bir ay sonra isə qalanı tutmasına şərait yaradır.Osmanlı İmperatorluq qoşunlarını Təbrizdən qərbə çəkilməyə məcbur edən Şah Abbas öz ordusunu Araz çayına doğru yönəldir.***

***Naxçıvan və Culfa döyüşsüz təslim olur.Az sonra üsyana qalxan Ordubad da onlara qoşulur.1604-cü ildə Qars qalası ələ keçirilir.Şah Abbasın birinci vəziri ordubadlı Hətəm bəyin tövsiyəsi ilə Ordubad bütün vergilərdən azad edilir.Güclü surətdə möhkəmləndirilmiş İrəvanı tutmaq isə heç də asan olmur.Şəhərin mühasirəsi 1603-cü ilin 16 noyabrında başlanır.Şah Abbas məşhur Azərbaycan topçusu Bahadur xan Topçubaşının tökdüyü iri çaplı toplardan ilk dəfə burada İrəvanın Osmanlı qarnizonuna qarşı istifadə edir.Son yüz il ərzində ilk dəfə Qızılbaş ordusu bu qədər geniş miqyasda hücum edir,Osmanlı İmperatorluq ordusu müdafiə olunmağa başlayır.Azərbaycan Türklərindən ibarət Azərbaycan ordusunun başında öz qarşısına Şah İsmayıl Xətainin yaratdığı nəhəng Qızılbaş dövlətini (1501-1736) bərpa etmək vəzifəsi qoymuş on altı yaşlı gənc,ağıllı,çevik,cəsur və şərəfli bir sərkərdə dururdu.İrəvan qalası yalnız bir ildən sonra alınır.Bu vilayətin idarəsi Əmirgünə xan Ağcaqoyunlu-Qacara,Naxçıvan isə Məsud sultan Kəngərliyə tapşırılır.Bundan sonra Gürcüstan da I Şah Abbasdan vassal asılılığını qəbul edir.***

Osmanlı İmperatorluq ordusunun əsas qüvvələri ilə döyüş hələ qabaqda idi.Qarşıdakı həmin döyüşün ölkənin taleyi üçün önəmli əhəmiyyət daşıdığını başa düşən Şah Abbas Qızılbaşların Osmanlılara qarşı ənənəvi taktikasını-“yandırılmış torpaq” taktikasını seçir.Ancaq bu dəfəki öz miqyası və qəddarlığı ilə indiyə qədər edilənlərin hamısını geridə qoyur.Osmanlılarla Şirvanı ayıran nəhəng bir ərazi boşaldılır,şəhərlər təmizlənir,əhali isə İranın mərkəzi hissəsinə köçürülür.Dağıdılan şəhərlər arasında Culfa,Naxçıvan və İrəvan da vardı.Cığaloğlu Sənan Paşanın başçılıq etdiyi Osmanlı İmperatorluq ordusu İrəvana girəndən sonra ərzaqsız və yatacaqsız qalıb,yenidən Vana döndülər. Elə bu zaman şah Abbasın qoşunları Van üzərinə yürüş edərək,Cığaloğlunun ordusunu pərən-pərən salırlar.İndi burada yandırılmış torpaq siyasəti yeridilir.Salmasdan Təbrizəcən 250 kilometrlik bir ərazi boş bir düzəngaha çevrilir.Buna baxmayaraq,Cığaloğlu yenidən 100 minlik nəhəng bir ordu toplayıb,Təbriz üzərinə yeriyir.1605-ci ilin 7 noyabrında Sufiyan kəndi yaxınlığında(Sufiyan döyüşü) Şah Abbasın apardığı ən iri döyüşlərdən biri baş verir.Şah Abbasın hərbi istedadı da burada özünü parlaq bir şəkildə biruzə verir.Bütün hərbi əməliyyatlara şəxsən rəhbərlik edən şah əsas və ehtiyat qüvvələri elə bölüşdürür ki,rəqibin üstün saylı ordusunun öhdəsindən gələ bilsin.Bundan başqa o,gözlənilməz hərbi fəndlər işlədir.Bütün bunların sayəsində həddindən artıq qənimət,o cümlədən 100-ə qədər ağır top ələ keçirir.

Həmin qələbədən dərhal sonra Qarabağa yeriyən Şah Abbas Gəncə qalasını mühasirəyə alır.Qalanın mühasirəsi 1606-cı ilin yayına qədər,düz dörd ay davam edir.Hüseyn xan Mühasib Qacarın yerinə Məhəmməd xan Ziyadoğlu Qacar Qarabağ hakimi təyin olunur.Bundan sonra Şah Abbasın qoşunları Borçalını,Loru və Dumanlını ələ keçirir.Gürcüstan da şah qoşunları tərəfindən fəth olunur.Şah Abbas Şirvana doğru hərəkət edir.Şamaxı yarım il mühasirədə saxlanır.Bu vaxt Dərbənd və Bakı əhalisi üsyana qalxaraq,osmanlı qarnizonlarını dağıdır.Beləliklə,Şah Abbas çoxdankı arzusunu həyata keçirib,bütün Azərbaycanı özünə tabe edir.Bundan başqa şərqi Kürdüstan da I Şah Abbasın əlinə keçir.

Osmanlı tarixçisi İbrahim Pəçəvi yazırdı: “Beləliklə,islam döyüşçülərinin 10-12 ildə əldə etdikləri hər şeyi itirildi.Bu allahsız şah ikicə ildə hər şeyi döyüşlə əlimizdən aldı”.

Osmanlılar itirdikləri ərazilərin əldən çıxması ilə barışmaq istəmir və 1590-cı il müqaviləsinə qayıtmaq tələbi qoyurdular.Bu isə 1612-ci ildə bağlanmış yeni sülh sazişi imzalana qədər fasiləsiz müharibələrə gətirib çıxarır.1612-ci il sazişinə əsasən,mövcud sərhədlər tanınır.Faktiki olaraq,Osmanlı Türkləri Şah Abbasın tutduğu torpaqlardan əl çəkirlər.



***1622-1623-cü illər ərzində Şah Abbas İraqi-Ərəbin Bağdad,Kərbala,Nəcəf,Kərkük kimi iri şəhərlərini və Gürcüstanda Ahalsıxı tutur.Üstündən bircə il keçməmiş Şah Abbasın öz yanında yaxşıca hərbi hazırlıq görən qulamlarından Georgi Saakadze Qızılbaşlarla mübarizəyə qalxır.Saakadzenin qoşunları Şərqi Gürcüstanı ələ keçirir,sonra isə Gəncəni tutaraq,dağıdırlar.Şah Abbas bu üsyanı yatırmaqdan ötrü iri bir qoşun göndərir və həmin qoşun 1625-ci ilin 30 iyununda Gümüşlü adlanan yerdə (Gümüşlü döyüşü) gürcülər üzərində qələbə çalır.Şah Abbas Qarabağ hakimi Məhəmməd Qulu xan Ziyadoğlu Qacarı qorxaqlıq göstərdiyinə görə hakimlikdən kənarlaşdırır.Gürcülərə isə heç bir əsrdə Şah Abbası unutmayacaqları sərt cəza tədbirləri ilə cavab verilir.Gürcü ordusu tam məhv edilir.***

Moğollarla- Hindistandakı Teymuri İmperatorluğu ilə mübarizə.

I Şah Təhmasibin (1501-1576) hakimiyyəti dövründə 1558-ci ildə Qəndahar Qızılbaş Dövlətinin tərkibinə qatılmışdı.Şah Təhmasibin ölümündən sonra,Qızılbaş dövlətinin zəifləməsindən istifadə edən Moğollar(Teymurilər) 1595-ci ildə şəhəri ələ keçirmişdilər.

Osmanlılar və özbəklərlə savaşdan qalib çıxdıqdan sonra Şah Abbas Qəndəharla bağlı ciddi olaraq məşğul olmağa başladı.1620-ci ildə öz elçisi Zeynal bəy Şamlını Moğol şahı Cahangirin sarayına göndərərək Şah Abbas Qəndəharı geri istəmişdi.Cahangir şah (1605-1627) bu təklifi qəbul etməyərək Qızılbaş elçisini saraydan qovmuşdur.1622-ci ildə Şah Abbasın özünün başçılıq etdiyi ordu İsfahandan Qəndəhara yola düşdü.Bu yürüşdə şahı Əliqulu xan Şamlı və İsa xan Qorçubaşı kimi təcrübəli sərkərdələr müşayət edirdilər.Şəhəri mühasirəyə alan Qızılbaşlar tezliklə 1622-ci il iyunun 21-də qalanı ələ keçirdilər.Qəndəhar qalasının ələ keçirilməsi ilə Zəmindavər də Qızılbaş torpaqlarına daxil edildi.Cəncəli xan Qəndahar hakimi təyin edildi.

### Bəhreynin və Hörmüzün fəthi

Bəhreyn- Bəsrə körfəzinin qərb sahillərində olan adalar qrupudur.Bu adaların ən böyüyünə Bəhreyn deyilir.

1602-ci ildə Bəhreyn hakimi Rükunəddin Məsud,Portuqalların tabeliyində olan Hörmüz hakimi Firuz şahın qorxusundan Qızılbaş Dövlətinin Fars bəylərbəyi (1595-1613) Alllahverdi xandan kömək istədi.Allahverdi xan fürsətdən istifadə edərək Rükunəddini öldürtdü və Bəhreyn 766 km2 ərazisi olan ada Qızılbaş Dövlətinin əlinə keçdi.Bundan sonra portuqallar və Hörmüz hakiminin qüvvələri Bəhreynə hücuma keçsələr də qızılbaşlar onları məğlub edərək geri çəkilməyə məcbur etdilər.Portuqalların Bəhreyni Qızılbaş Dövlətindən almağa yetərincə gücləri yox idi.Lakin Bəhreyni təhlükəsiz saxlamaq üçün qızılbaşlar Hörmüzü də ələ keçirməyə məcbur idilər.

Hörmüz ən böyük ticarət limanlarından biri idi və Bəsrə körfəzinin girişində yerləşirdi.Beləki, Qərbi Asiya və Hindistan arasında yerləşən Hörmüz çox böyük ticarət əhəmiyyətinə malik idi.Hörmüz adası Portuqal-Qızılbaş müharibəsi (1507-1622) zamanı 1507-ci ildə portuqallar tərəfindən işğal edilir.Hörmüz boğazını nəzarətdə saxlamaq məqsədi ilə portuqallar adada Hörmüz qalasını inşa edirlər.

***Şah Abbas 1602- ci ildə Bəhreyn adasının fəthindən sonra Allahverdi xana Hörmüzün də ələ keçirilməsini əmr etmişdi.Amma Alllahverdi xan Hörmüz məsələsiylə yalnız 1613-cü ildə məşğul ola bilmişdi.Həmin il adaya Hörmüzə hücum edən qızılbaşlar məğlub olmuşdular və bu hadisədən sonra Allahverdi xan xəstələnərək ölmüşdür.Allahverdi xanın ölümündən sonra Fars bəylərbəyisi oğlu İmamqulu xan təyin edilmişdi.***

Hakimiyyətinin ilk illərində İmamqulu xan Portuqalların Hörmüz adasını qorumaq üçün tikdikləri Gembrun limanını ələ keçirərək qalanı dağıtdı və qalanın yerində daha möhkəmini düzəltdirdi.Lakin hələdə qalanın qarşısında yerləşən Hörmüz adası hələdə fəth olunmamışdı.

1620-ci ildə 4 ingilis hərb gəmisi Surat limanından Fars körfəzinə doğru hərəkət etdilər.Dekabr ayının 28-də baş verən döyüşdə ingilislər portuqallara qalib gəlsələrdə kapitan Şilinq öldürüldü.Bu qalibiyyətin nəticəsində ingilislərin Fars körfəzinə yolları açılmışdı.

İngilis-Portuqal rəqabətindən Şah Abbbas istifadə etmək istəyirdi.Bununla da o,Hörmüzü tamamilə geri almaq istəyirdi.1621-ci ildə dekabrın 26-da Ost-Hind şirkəti və Qızılbaş Dövləti arasında müqavilə imzalandı.Müqavilənin şərtlərinə görə :

1.Ələ keçirilən bütün qənimətlər eyni miqdarda bölünəcək.

2.Hörmüz adasına hücum eyni anda olacaq.

3.Adanın kömrük haqqı eyni olaraq bölüşdürüləcək.

4.Döyüşdən sonra xristian əsirlər ingilislərə,Müsəlman əsirlər Qızılbaşlara veriləcək.

5.Döyüş xərclərini hər iki tərəf eyni miqdarda qarşılayacaq.

1622-ci ildə Qızılbaş Dövlətinin Fars bəylərbəyi İmamqulu xan 3000 qızılbaş ilə qurudan,ingilislər isə sudan hücuma başladılar.Müttəfiqlər portuqallar üçün ərzaq və su qaynağı olan Keşm adasını tutdular.9 fevral 1622-ci ildə ingilislər Hörmüz adasının qarşısına dəmir atdılar.Bəndər Abbasdan (Gemburundan) ingilis gəmiləriylə daşınan Qızılbaş Dövləti əsgərlərinə,İmamqulu xan və Şahqulu bəy başçılıq edirdilər.Qızılbaşlar top atəşinin dəstəyi ilə Hörmüz qalasını mühasirəyə aldılar.Aprelin 9-da qalanın hasarları dağıdıldı.Davam gətirə bilməyəcəyiini görən Portuqalllar aprelin 23-dı qalanı tərk edib qaçdılar.İmamqulu xan qalaya 200 nəfərlik qızılbaş yerləşdirdi.Bununla da 1 əsr işğal altında olan Hörmüz adası yenidən Qızılbaş Dövlətinin tərkibinə qatıldı.Adanın işğalından sonra Şah Abbas ingilislərə verməli olduğu imtiyazları onlara vermədi.İngilislərlərin ələ keçirdiyi qənimətlərdə qızılbaşlar tərəfindən ucuz qiymətə geri alındı.Hörmüzün azad olunmasından sonra,onun qarşısında yerləşən Gemburun limanının adı dəyişdirilərək, Bəndər Abbas adlandırıldı.42 km2 ərazisi olan Hörmüz adası Bəhreyn adası kimi Qızılbaş Dövlətinin tərkibinə qatıldı.İngilislər Portuqaliya qarnizonunun toplandığı Hörmüz qalasını dənizdən donanma ilə bombardman etdikdən sonra Qızılbaş ordusu 1622-ci ilin aprel ayının 22-də Hörmüz qalasını almışdı.

### Şah Abbasın şəxsiyyəti

***Dövrünün tanınmış sərkərdəsi və dövlət xadimi olan Şah I Abbas xalqın yaddaşında keçirdiyi islahatlar,uğurlu hərbi əməliyyatları,köçürmə siyasəti ilə bərabər apardığı geniş quruculuq işləri ilə qalmışdır.***

***Şah Abbas ömrü boyu dövlətinin sərhədlərini genişləndirməyə çalışmışdır.Hətta ölümündən bir müddət əvvəl Fars bəylərbəyi İmamqulu xanla Xuzistan hakiminə Bəsrəni ələ keçirmək tapşırığını vermişdir.***

I Şah Abbas xalqın vəziyyətini yaxından öyrənmək üçün ya təkbaşına,ya da vəzirləri ilə birgə tərki-libas olaraq xalqın içində gəzərdi.O,Nəqşi-Cahan meydanında gəzən zaman çörəkçidən çörək,qəssabdan ət alaraq saraya dönmüş,onların çəkisi düz olmadığı üçün çörəkçi və qəssab cəzalandırılmışdı.O,hətta hərbi yürüşləri zamanı qaldığı şəhərdə xalq arasına çıxaraq yerli məmurların xalqla necə davrandığını araşdırmışdır.Şikayətlə qarşılaşdığı zaman şəhər hakimini dəyişərdi.

***İtalyan səyyahı Della Valle Əşrəf şəhərində şahı ilk dəfə gördüyündə onu ‘qartal burunlu,uzun bığlı,saqqalsız,qara qaşlı gənc “ kimi təsvir etmişdi.O,orta boylu,yaşıl və təsirli gözlərə,qısa alına,incə çənəyə malik olmuşdur.Bir qayda olaraq sadə geyinər,yaşıl,qırmızı və qara rəngə üstünlük verərdi.Zinət şeylərindən istifadə etməzdi.Yalnız qılıncının qəbzəsi qızıldan idi.***

***Şah Abbas 1629-cu ilin 19 yanvarında Mazandaran vilayətinin Əşrəf şəhərində 58 yaşında vəfat etmişdi.***

***Bu gün də İran nüfusunun üçdə ikisini və ən fəallarını təşkil edən ünsür türklərdi.I Şah Abbas dövlətçilik və ordu tariximizdə mühüm yer tutan şəxsiyyətlərdən biridir.***

***Osmanlılar itirdikləri ərazilərin əldən çıxması ilə barışmaq istəmir və 1590-cı il müqaviləsinə qayıtmaq tələbi qoyurdular.Bu isə 1612-ci ildə bağlanmış yeni sülh sazişi imzalana qədər fasiləsiz müharibələrə gətirib çıxarır.1612-ci il sazişinə əsasən,mövcud sərhədlər tanınır.Faktiki olaraq,Osmanlı Türkləri Şah Abbasın tutduğu torpaqlardan əl çəkirlər. 1622-1623-cü illər ərzində Şah Abbas İraqi-Ərəbin Bağdad,Kərbala,Nəcəf,Kərkük kimi iri şəhərlərini və Gürcüstanda Ahalsıxı tutur.Üstündən bircə il keçməmiş Şah Abbasın öz yanında yaxşıca hərbi hazırlıq görən qulamlarından Georgi Saakadze Qızılbaşlarla mübarizəyə qalxır.Saakadzenin qoşunları Şərqi Gürcüstanı ələ keçirir,sonra isə Gəncəni tutaraq,dağıdırlar.Şah Abbas bu üsyanı yatırmaqdan ötrü iri bir qoşun göndərir və həmin qoşun 1625-ci ilin 30 iyununda Gümüşlü adlanan yerdə (Gümüşlü döyüşü) gürcülər üzərində qələbə çalır...***